**Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra «Razılığa gələn Tərəflər» adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti,

Razılığa gələn Tərəflər arasında bərabərlik əsasında çoxsahəli və qarşılıqlı faydalı iqtisadi əlaqələrin qurulması və təşviq edilməsi arzusunda olaraq,

bərabərlik, qarşılıqlı hörmət və ümumi mənfəət prinsipləri əsasında qurulan əlaqələrin daha da gücləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

M a d d ə 1

Razılığa gələn Tərəflər öz qanunvericilikləri çərçivəsində iqtisadi inkişafla əlaqədar bütün sahələrdə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişlən-dirilməsini təşviq edəcəklər.

Maddə 2

Razılığa gələn Tərəflər iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərini nəzərə alaraq, xüsusi olaraq aşağıdakı sahələrdə uzunmüddətli fəaliyyət üçün əlverişli şərait yaradacaqlar:

su təsərrüfatı işlərinin idarəedilməsi, təbii ehtiyatlar və ətraf mühit məsələləri,

kənd təsərrüfatı və yeyinti məhsullarının emalı sənayesi,

səhiyyə, tibbi texnologiya, tibb və əczaçılıq sənayesi,

informasiya və kommunikasiya texnologiyaları,

turizm,

daşımalar,

g) nəqliyyat sənayesi və avtomobil ehtiyat hissələri,

h) elektronika və elektrotexnika sənayesi,

i) kimya və neft-kimya sənayesi,

j) mineral xammal və mədən sənayesi məhsullarının kəşfiyyatı, istehsalı, emalı və sonrakı marketinqi,

k) əmək ehtiyatlarının inkişafı,

1) kiçik və orta həcmli müəssisələr arasında əməkdaşlıq,

m) enerji istehsalı, ötürülməsi və paylaşdırılması üçün avadanlıqların istehsalçıları ilə əməkdaşlıq, enerji sektorunda mütəxəssislərin hazırlanması,

n) baytarlıq təbabətində tətbiq olunan preparatların və bioloji məhsulların istehsalı.

M a d d ə 3

Razılığa gələn Tərəflər aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi yolu ilə aralarında əməkdaşlığı genişləndirəcək və gücləndirəcəklər:

iqtisadiyyat sahəsində yüksək vəzifəli məmurlar, hökumət orqanları, ixtisaslaşmış təşkilatlar, biznes federasiyaları, ticarət və sənaye palataları, regional və yeri qurumlar arasında əlaqələrin təşviq edilməsi və əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı maraq kəsb edən iqtisadi məlumatın mübadiləsinin təşviq edilməsi, eləcə də öz nümayəndələrinin və digər iqtisadi və texniki sahədə nümayəndə heyətlərinin səfərlərinin həyata keçirilməsi,

inkişaf prioritetlərinə dair məlumat mübadiləsi və inkişaf layihələrində biznes operatorlarının iştirakı,

ayrı-ayrı şəxslər və müəssisələr arasında səfərlər, görüşlər və digər əlaqələr vasitəsilə iki ölkənin biznes dairələri arasında yeni əlaqələrin qurulmasının təşviq edilməsi və mövcud əlaqələrin genişləndirilməsi,

biznesə dair məlumat mübadiləsi, yarmarka və sərgilərdə iştirakın təşviq edilməsi, biznes tədbirlərinin, seminarların, simpoziumların və konfransların təşkili,

özəl sektorun kiçik və orta müəssisələrinin ikitərəfli iqtisadi əməkdaşlıq layihələrində iştirakı,

qarşılıqlı maraq kəsb edən sahələrdə məsləhətləşmələr, marketinq, məsləhət və ekspert xidmətlərində əməkdaşlığın təşviq edilməsi,

g) maliyyə institutları və bank sektorları arasında əməkdaşlığın təşviq edil-məsi,

h) investisiya əməkdaşlığının təşviq edilməsi, birgə müəssisələrin yaradılması və şirkət nümayəndəliklərinin açılması,

i) regionlararası və beynəlxalq əməkdaşlıq layihələrində hər iki ölkənin şirkətləri arasında əməkdaşlığın təşviq edilməsi,

j) professional təhsilin inkişaf edilməsi və əmək qüvvəsinin hazırlanması məqsədilə məlumat mübadiləsi,

k) məşğulluğun inkişafı və əmək miqrasiyasının tənzimlənməsi üzrə təcrübə mübadiləsi.

## M a d d ə 4

1. Bu Saziş imzalandıqdan sonra «Birgə Komissiya» yaradılacaqdır və Komissiyanın iclasları mütəmadi və növbə ilə, Razılığa gələn hər hansı Tərəfin xahişi ilə Azərbaycanda və Macarıstanda keçiriləcəkdir.

2. Birgə Komissiyanın vəzifələrinə xüsusi olaraq aşağıdakılar daxil olacaqlardır:

a) ikitərəfli iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinin müzakirəsi;

b) gələcək iqtisadi əməkdaşlığın inkişafı üçün yeni imkanların müəyyənləşdirilməsi;

c) hər iki ölkənin müəssisələri arasında iqtisadi əməkdaşlığın şərtlərinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması;

d) bu Sazişin tətbiqinə dair təkliflər verilməsi.

## M a d d ə 5

Bu Saziş Macarıstan Respublikasının Avropa İttifaqının üzvü olan dövlət kimi hüquqlarına xələl gətirmir və bu öhdəlikləri nəzərə alır. Bu səbəbdən bu Sazişin şərtləri bütövlükdə və ya qismən, Macarıstan Respublikasının Qoşulma haqqında Sazişdən, Avropa İttifaqının Təsis Müqavilələrindən, Avropa İttifaqı haqqında Müqavilədən, eləcə də Avropa İttifaqının birinci və ikinci dərəcəli qanunvericiliyindən irəli gələn hüquqlarını qüvvədən salan, hüquqları dəyişdirən və ya digər qaydada onlara təsir edən kimi şərh edilməyəcəkdir.

M a d d ə 6

Razılığa gələn Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 8-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən, ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər edə bilərlər.

M a d d ə 7

Bu Sazişin təfsiri və/və ya tətbiqindən irəli gələn hər hansı mübahisələr Birgə Komissiya çərçivəsində Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr və ya danışıqlar yolu ilə dostcasına həll ediləcəkdir.

M addə 8

1. Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün ölkələrinin konstitusiya tələblərinin yerinə yetirildiyi barədə bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

2. Bu Saziş beş il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə Razılığa gələn digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi növbəti beşillik müddətlərə uzadılır.

3. Bu Sazişin ləğv edilməsi bu Saziş əsasında olan və onun ləğv edilmə-sindən əvvəl əldə edilmiş razılaşmaların və/və ya proqramların qüvvədə olmasına təsir etməyəcəkdir.

Bu Saziş Budapeşt şəhərində 18 fevral 2008-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, macar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı fikir aynlığı yarandığı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Macarıstan Respublikası Hökuməti adından** |
| *(imza)* | *(imza)* |

**Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat Və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra «Tərəflər» adlandırılacaq Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi,

sənaye və energetikanın inkişafını iqtisadiyyatın ən mühüm sahəsi kimi qiymətləndirərək,

Tərəflər arasında uzunmüddətli ikitərəfli əlaqələrə əsaslanan iqtisadi əməkdaşlığın genişləndirilməsini arzulayaraq,

ticarət əlaqələrinin müasirləşdirilməsi, xammaldan rasional istifadə və əməkdaşlığın yeni formalarının yaradılması üçün səmərəli əsas yaratmaq arzusunu rəhbər tutaraq,

ikitərəfli iqtisadi əlaqələrin əhəmiyyətini anlayaraq,

öz dövlətlərinin qanun və qaydalarına və beynəlxalq öhdəliklərinə tam uyğun olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

M a d d ə 1

Tərəflər müvafiq qanun və qaydalar çərçivəsində qarşılıqlı maraq və səlahiyyətlərinə uyğun olaraq, avadanlıqların istehsalı və xidmətlər də daxil olmaqla, sənaye və energetika sahələrində əməkdaşlığı inkişaf etdirirlər.

M a d d ə 2

Nazirliklərarası əməkdaşlığın məqsədi mövcud Azərbaycan-Macarıstan iqtisadi əlaqələrini dəstəkləmək və əməkdaşlığın yeni istiqamətlərini inkişaf etdirməkdən ibarətdir.

M a d d ə 3

Tərəflər sənaye və enerji sahəsində informasiya və təcrübə mübadiləsi aparır və xüsusilə aşağıdakı sahələrdə birgə istehsalı, birgə tədqiqat və inkişafı həvəsləndirirlər:

mineral xammal materiallarının və dağ mədən sənayesi məhsullarının istismarı, istehsalı, hazırlanması, emalı və sonrakı marketinqi;

enerji istehsalı üçün avadanlıqlar istehsal edən istehsalçılarla əməkdaşlıq;

kimya və neft kimyası sənayesi;

tibb və dərman sənayesi;

elektronika və elektrotexnika sənayesi;
qida istehsalı sənayesi
və qarşılıqlı maraq kəsb edən digər sahələr.

M a d d ə 4

Bu Sazişdə göstərilən məqsədlərə çatmaq məqsədilə, zəruri olduğu təqdirdə, Tərəflər nümayəndələrinin ikitərəfli danışıqlarını təşkil edirlər.

M a d d ə 5

Tərəflər bu Sazişin məqsədlərini həyata keçirmək məqsədilə iş adamlarının görüşlərini, o cümlədən konfrans və seminarlarının keçirilməsini həvəsləndirirlər.

M a d d ə 6

Tərəflər maraqlı şirkətləri Azərbaycan Respublikasının ərazisində keçirilən tenderlərdə, sərgilərdə və yarmarkalarda iştirak etmək üçün dəvət edəcəklər. Tərəflər qarşılıqlı maraqlar əsasında birgə layihələr müəyyən edə və bu layihələrdə iştirak şərtlərini işləyib hazırlaya bilərlər.

M a d d ə 7

Tərəflər bu Sazişlə bağlı hər hansı mübahisələri dostcasına birbaşa danışıqlar əsasında həll edəcəklər.

M a dd ə 8

Bu Saziş beş il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün Azərbaycan Respublikasında zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə yazılı bildirişin Macarıstan tərəfindən diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Sazişə xitam verilməsi onun əsasında təsis edilmiş proqram və razılaşmaların qüvvəsinə və müddətinə, onlar bitənədək təsir etmir.

Bu Sazişə Tərəflərin qarşılıqlı yazılı razılığı ilə, bu maddəyə uyğun olaraq, əlavə və dəyişikliklər edilə bilər. Hər hansı əlavə və dəyişiklik bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdiriləcəkdir.

Bu Saziş Budapeşt şəhərində 18 fevral 2008-ci il tarixində iki əsl nüsxə-də, hər biri Azərbaycan, macar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının**<br>**Sənaye və Energetika Nazirliyi** | **Macarıstan Respublikasının**<br>**İqtisadiyyat və Nəqliyyat Nazirliyi** |